**TİPOLOGİYA 2. Bir sıra vasitəçi subyektlər tərəfindən hüquqi və fiziki şəxslərin bank hesablarına köçürülmüş vəsaitlərin nağdlaşdırılması vasitəsilə dövlət vəsaitlərinin mənimsənilməsi nəticəsində əldə olunmuş qeyri-qanuni gəlirlərin yuyulması**

Daxil olmuş məlumatın araşdırılması nəticəsində dövlət satınalması üçün nəzərdə tutulmuş milyonlarla dövlət vəsaitinin mənimsənilməsi sxemi müəyyən olunmuşdur.

Dövlət qurumunun vəzifəli şəxsləri istehlak mallarının satın alınması üzrə tanınmayan yerli özəl vasitəçi şirkətlər (öz yaxın adamlarının adına təsis olunmuş örtük şirkətləri) ilə saxta müqavilələr bağlamış, onların maliyyələşdirilməsi üçün ayrılmış dövlət vəsaitləri isə müvafiq şirkətlər və onların nominal şəxsləri tərəfindən (dövlət qurumunun vəzifəli şəxslərinin xeyrinə) nağdlaşdırılaraq mənimsənilmişdir.

Nağdlaşdırma məqsədilə onlar tərəfindən digər birgünlük şirkətlər (şel şirkətlər, örtük şirkətləri) yaradılmışdır.

Müvafiq özəl şirkətlər dövlət qurumunu istehlak malları ilə təchiz etməyi öz öhdələrinə götürmüş və müqavilənin ümumi məbləği bir neçə milyon manat təşkil etmişdir. Lakin vasitəçi şirkətlər müvafiq malların istehsalı ilə məşğul olmamış, bu malları xarici ölkələrdən şişirdilmiş müqavilə dəyəri ilə təchiz etmişlər.

Satınalma məqsədilə özəl şirkətlərə köçürülmüş pul vəsaitləri sonda dövlət şirkətinin vəzifəli şəxslərinə geri qayıtmış (adlarına birgünlük şirkətlər açılmış şəxslərə ödənilmiş xırda mükafatları çıxmaqla) və öz şəxsi məqsədləri üçün istifadə olunmuşdur.

Dövlət qurumu üçün istehlak mallarının satın alınması məqsədilə “X” şəxsinin direktoru və hesabına imza hüququ olduğu “ABC” və “XYZ” yerli özəl şirkətlərə, eləcə də “X” şəxsinin qeyd olunan hüquqi şəxslər ilə yanaşı, imza hüququ olduğu 10-a yaxın hüquqi şəxsə, o cümlədən digər əlaqəli hüquqi və fiziki şəxslərə təqribən bir neçə milyon manat məbləğində vəsait köçürülmüş və son nəticədə müqavilə öhdəlikləri tam və nəzərdə tutulan qaydada icra olunmayaraq nağdlaşdırılmışdır.

Bundan əlavə, dövlət qurumu və “ABC” şirkəti arasında istehlak mallarının təchizatı ilə bağlı bağlanılmış müqavilələr üzrə şirkətin “Yerli Bank”dakı hesabına köçürülmüş külli miqdarda vəsaitlərin bir qismi müəssisənin direktoru “X” şəxsi tərəfindən nağdlaşdırılaraq dövlət qurumunun vəzifəli şəxslərinin bir sıra kart hesablarına mədaxil olunmuşdur.

**İstifadə olunmuş mexanizmlər**

- Kredit təşkilatları
- Birgünlük (şel) şirkətlər
- Qanuni xarici şirkətlər

**İstifadə olunmuş alətlər**

- Bank köçürmələri
- Saxta satınalma müqavilələri

**İstifadə olunmuş üsullar**

- saxta alqı-satqı müqavilələrinin bağlanması;
- vəsaitlərdən real fayda əldə edən şəxsləri gizlətmək məqsədilə “shell” şirkətdən istifadə;
- nağdlaşdırılmış vəsaitlərin fərdi kart hesablarına köçürülməsi;
- vəsaitlərin izinin itirilməsi üçün bir sıra vasitəçi örtük firmalardan istifadə;
- “birgünlük” yerli firmaların qeydiyyatı və onlar vasitəsilə əməliyyatların aparılması;
- birbaşa və dolayı olaraq yüksək məbləğdə nağdlaşdırmaların aparılması;
- nominal şəxslərin cəlb olunması.

**İstifadə olunmuş metodlar (indikatorlar)**

- dövlət qurumu tərəfindən real istehsal və ticarət fəaliyyəti olmayan şirkətlərlə müqavilə bağlaması və əməliyyatlar aparması;
- müqavilə dəyərinin şişirdilməsi və əlavə vəsaitlərin dərhal nağdlaşdırılması;
- əməliyyatların həyata keçirilməsi sxeminin iqtisadi cəhətdən rasional olmaması.

**Dövlət vəsaitlərinin mənimsənilməsi nəticəsində əldə olunmuş qeyri-qanuni gəlirlərin leqallaşdırılması sxemi**

